# AZƏRBAYCAN VETERANI

AZƏRBAYCAN VETERANLAR TƏŞKİLATI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

16 (68) 02 noyabr 2016-cı il

İctimai-siyasi qəzet


## İlham Əliyev Kanadanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Prezident İlham Əliyev Kanadanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kristofer Con Kuterin etimadnaməsini qəbul edib.

Səfir Kristofer Con Kuter fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Kristofer Con Kuter etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Səfir Kristofer Con Kuter paytaxtımızın inkişafının onda dərin təəssürat yaratdığını məmnunluqla qeyd etdi. Kristofer Con Kuter Kanadanın bir sıra mühüm şirkətlərinin Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən yüksək texnologiyalar, nəqliyyat, turizm sahələrində fəaliyyət göstərdiklərini qeyd etdi. Azərbaycanlı tələbələrin Kanada universitetlərində təhsil aldıqlarını məmnunluqla qeyd edən Kristofer Con Kuter ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığın daha da genişləndirilməsinin önəmini vurğuladı.

Kanadalı diplomat ölkələrimiz arasında əlaqələrin gücləndirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Kanada şirkətlərinin uzun illər Azərbaycanda fəaliyyətinə toxunan dövlətimizin başçısı həyata keçirilən birgə layihələrin



əhəmiyyətini qeyd etdi.

Prezident İlham Əliyev Bakıda fəaliyyət göstərən Kanada şirkətlərinə məxsus beşulduzlu iki otelin – “Four Seasons” və “Fairmont” otellərinin regionda ən yaxşı otellərdən olduqlarını bildirdi. Dövlətimizin başçısı “Fairmont” otelinin yerləşdiyi müasir memarlıq üslubunda inşa edilən “Alov qüllələri” kompleksinin Bakının yeni simvollarından biri olduğunu dedi.

Prezident İlham Əliyev Kanada şirkətləri ilə əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

## İlham Əliyev Cənubi Afrika Respublikasının Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Prezident İlham Əliyev Cənubi Afrika Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Pule İsaak Malefanenin etimadnaməsini qəbul edib.

Səfir Pule İsaak Malefane fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Pule İsaak Malefane etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycan Respublikası ilə Cənubi Afrika Respublikası arasında siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimizin iqtisadiyyat və ticarət sahələrində də əməkdaşlığı genişləndirməsinin zəruriliyini qeyd etdi.

Artıq bir neçə ildir Azərbaycanın Cənubi Afrika Respublikasında səfirliyinin fəaliyyət göstərdiyini bildirən Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi və biznes nümayəndələri üçün imkanların yaradılması baxımından səfirliklərin rolunu vurğuladı.

Səfir Pule İsaak Malefane ölkələrimiz arasında mövcud əlaqələrin gücləndirilməsi işində səylərini əsirgəməyəcəyini bildirdi.

## İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən proseslər müzakirə edildi, Ermənistanın qeyri-konstruktiv mövqe tutaraq bu münaqişənin həllinə daim əngəl yaratdığı vurğulandı.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində həmsədrlərin və beynəlxalq birliyin rolu ətrafında fikir mübadiləsi aparıldı.

## Türkiyə Respublikasının Baş naziri Zati-aliləri cənab Binəli Yıldırıma

Hörmətli cənab Baş nazir,

Qardaş Türkiyənin milli bayramı – Respublika günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Türkiyə bu gün özünün iqtisadi yüksəlişi və beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi ilə dünyada böyük nüfuz qazanmışdır. Dövlətçiliyinə qarşı yönəlmiş çevriliş cəhdinin sınağından mərdliklə çıxması Türkiyənin bir dövlət kimi qüdrətini, eləcə də ölkədəki sarsılmaz dövlət-xalq vəhdətini bir daha əyani şəkildə nümayiş etdirdi.

Azərbaycanla Türkiyəni möhkəm dostluq və qardaşlıq telləri, ortaq mənəvi dəyərlər və həmrəylik birləşdirir. İnanıram ki, ölkələrimizin birliyi və müttəfiqliyi bundan sonra da xalqlarımızın rifahına, qarşıya qoyduğumuz vəzifələrin həllinə, beynəlxalq məsələlərdə qarşılıqlı dəstəyimizin möhkəmlənməsinə xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim sülh və rifah arzulayıram.

***Hörmətlə,***
***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı, 26 oktyabr 2016-cı il.***

# Azərbaycanın dövlət müstəqilliyi xalqımızın tarixi nailiyyətidir

***Oktyabrın 14-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında dövlət müstəqilliyimizin bərpasının 25-ci ildönümünə həsr edilmiş "Azərbaycanın dövlət müstəqilliyi xalqımızın tarixi nailiyyətidir" mövzusunda tədbir keçirilib.***

Tədbirdə müharibə, əmək və Silahlı Qüvvələr və Qarabağ müharibəsi veteranları, ictimai təşkilatların nümayəndələri, ziyalılar, gənclər və media təmsilçiləri iştirak ediblər.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək bildirib ki, tədbir Prezident İlham Əliyevin oktyabrın 11-də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında imzaladığı Sərəncamından irəli gələn vəzifələrin icrası ilə əlaqədar təşkil edilib. Azərbaycanın müstəqillik günü ölkə daxilində olduğu kimi, xaricdə də qeyd edilir. Ötən 25 il ərzində Azərbaycan siyasi, iqtisadi, hərbi və digər sahələrdə böyük nailiyyətlər əldə edib. O, Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25 illiyi münasibətilə tədbir iştirakçılarını təbrik edib.



Qeyd edilib ki, Azərbaycan xalqı 70 ildən çox müddətdə sovet imperiyasının tərkibində azadlıq, müstəqillik arzusu ilə yaşayıb. Nəhayət XX əsrin sonlarında SSRİ-nin süqutu müstəqilliyin bərpasına tarixi imkan yaradıb. 1988-ci ilin fevralından başlanan meydan hərəkatı Azərbaycan xalqının əzəli arzusu olan dövlət müstəqilliyinə qovuşmaq ideyası ilə geniş vüsət almışdır. Ulu öndər Heydər Əliyevin 20 Yanvar hadisələrinin ertəsi günü etiraz olaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyindəki mətbuat konfransında xalqımıza qarşı törədilən qanlı faciəyə siyasi qiymət verməsi müstəqillik uğrunda mübarizəyə yeni təkan verdi. Azərbaycan bundan sonra daha böyük inad və inamla müstəqilliyə doğru irəlilədi. 1991-ci il oktyabrın 18-də Respublika Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Beləliklə, xalqımız uzun illərdən bəri can atdığı azadlığına, müstəqilliyinə qovuşdu. Müstəqillik qazanılsa da, 1993-cü ilin ortalarına doğru hakimiyyət böhranı, vətəndaş müharibəsinə zəmin yaranması, müxtəlif bölgələrdə separatçılıq meyillərinin baş qaldırması Azərbaycanı müstəqil bir dövlət kimi parçalanmaq, məhv olmaq təhlükəsi ilə üz-üzə qoydu. Azərbaycanın böyük oğlu Heydər Əliyevin xalqın bu ağır günlərində hakimiyyətə gəlməsi daxili, xarici düşmənlərimizin bütün planlarını iflasa uğratdı. Dövlət strukturlarının yaradılması, idarəetmə mexanizminin təkmilləşdirilməsi Azərbaycanın inkişafına müsbət təsir göstərdi. Xilaskarlıq missiyasını öz üzərinə götürən Ulu Öndər vətəndaş qarşıdurmasının genişlənməsinin qarşısını aldı. Azərbaycan gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ölkəmizin iqtisadi inkişafına təkan verdi.

Diqqətə çatdırılıb ki, müstəqillik dövründə ölkəmizdə ordu quruculuğu sahəsində görülən işlər Azərbaycanın müdafiə potensialını gücləndirib. Azərbaycan müdafiə sənayesinin inkişafı Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsinə zəmin yaradıb və ordunun döyüş qabiliyyətini artırıb. Ermənistanın təxribatçı fəaliyyəti səbəbindən cari ilin aprelində cəbhədə baş verən hadisələrin nəticələri Qafqazda ən güclü orduya malik olduğumuzu bir daha təsdiq etdi.

Veteranlarımıza dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışan Cəlil Xəlilov vurğulayıb ki, hərtərəfli qayğı ilə əhatə olunan veteranlarımız bu gün bütün sosial şəraitlə təmin ediliblər.




"Hazırda Azərbaycan Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın sürətlə inkişaf edən qüdrətli, sabit ölkələrindən birinə çevrilib, müxtəlif sahələrdə böyük nailiyyətlər qazanıb. Bu gün müstəqilliyimizi qoruyub saxlamaq, möhkəmləndirmək və inkişaf etdirmək hər bir vətəndaşın borcudur.



Hər bir Azərbaycan vətəndaşının qarşısında duran əsas vəzifələrdən biri bunu qürur mənbəyinə çevirməkdir", - deyə Cəlil Xəlilov vurğulayıb.

Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Fidumə Hüseynova tədbirdə çıxış edərək müstəqillik illərində ölkəmizin böyük nailiyyətlər qazandığını söyləyib. O vurğulayıb ki, bu gün Azərbaycan beynəlxalq aləmdə söz sahibi olan ölkəyə çevrilib.

F.Hüseynova bildirib ki, dövlət müstəqilliyimizin qorunmasında veteranların da xidmətləri böyükdür. Onlar gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayırlar. Veteranlarımızda olan Vətən sevgisi hər bir azərbaycanlıda olmalıdır.

Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini gündəngünə inkişaf edən ölkəmizdə şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə və veteranlara hər zaman yüksək diqqət və qayğı, hərtərəfli yardım göstərildiyini vurğulayıb.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin məsul əməkdaşı Rasim Mirzəyev, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının hüquq kafedrasının professoru Bəhram Zahidov, Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun elmi katibi, professor Bədirxan Əhmədov məruzə ilə çıxış edərək dövlət müstəqilliyinin bərpasından sonra ölkəmizin ictimai-siyasi həyatında baş verən hadisələrdən, müstəqil Azərbaycanın davamlı inkişafının təmin edilməsində və dünyada nüfuzunun artmasında həyata keçirilən uğurlu strategiyanın nəticələrindən danışıblar.

Sonda ölkənin ictimai-siyasi həyatında fəal iştiraklarına və Azərbaycan gənclərinin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsindəki xidmətlərinə görə bir qrup şəxsə Respublika Veteranları Təşkilatı Rəyasət Heyətinin təsis etdiyi medallar təqdim edilib.

# Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında general-mayor Mustafa Nəsirovun 95 illik yubileyi qeyd edildi

General-mayor Mustafa Nəsirovun 95 illik yubileyinə həsr olunmuş tədbir yubiliyar haqqında film nümayişi ilə başlandı. Tədbiri giriş sözü ilə Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov açıq elan edərək qeyd etdi: "Mustafa Nəsirov, onun keçdiyi zəngin və şərəfli həyat yolu haqqında izlədiyimiz filmdə tam da olmasa, bir çox epizodlar öz əksini tapmışdır. Şübhə etmirəm ki, yubilyarın burada iştirak edən həmkarları, dostları, ailə üzvləri öz çıxışlarında bu böyük insanın keçdiyi həyat yoluna geniş nəzər salınacaqlar. Buna görə də mən qısa danışmaqla, bu yolun yalnız bəzi məqamlarını sizə xatırlatmaq istəyirəm. Onun II Dünya müharibəsində əsl Azərbaycanlı rəşadəti göstərməsini və bütün həyatı boyu bu ənənəsinə sadiq qalmasını xüsusi vurğulamaq istərdim.



1942-ci ildə döyüş cəbhəsindən Saratov Sərhəd Qoşunlarının hərbi məktəbinə göndərilən Mustafa Nəsirov bütün həyatını bu şərəfli peşəyə həsr etmişdir. Azərbaycan və Zaqafqaziya sərhəd dairələrinin qərargahlarında müxtəlif vəzifələrdə xidmət göstərmişdir. Göytəpə Sərhəd Dəstəsinin qərargah rəisi və Neftçala Sərhəd Dəstəsinin rəisi vəzifələrində çalışmışdır. M.Nəsirov 1962-1968-ci illərdə Naxçıvan Sərhəd Dəstəsinin rəisi olmuşdur. 1968-ci ilin oktyabrından ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Zaqafqaziya Sərhəd Dairəsinin hərbi əməliyyat şöbəsinin rəis müavini vəzifəsinə təyin edilmişdir. 1972-ci ilin dekabrından Bakıda HƏŞ-nin rəisi, SSRİ DTK – nin Zaqafqaziya sərhəd dairəsinin rəis müavini, dairənin Hərbi Şurasının və Azərbaycan Respublikası DTK-nin kolleqiyasının üzvü olmuşdur. 1977-ci ildə SSRİ Hərbi Qüvvələrinin Baş Qərargahı nəznindəki Akademiyada rəhbər heyətinin təkmilləşdirilməsi üzrə ali akademik kurslarını bitirmişdir.




Mustafa Nəsirov 1993-cü ilin avqustunda Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin sərhəd məsələləri üzrə baş məsləhətçisi təyin olunmuş və bu vəzifədə 1995-ci ilin iyuluna qədər işləmişdir. 1994-cü ildən 1995-ci ilə qədər MDB ölkələri iştirakçılarının parlamentarası Assambleyasının üzvü, mühafizə və təhlükəsizlik məsələləri üzrə daimi komissiyanın sədri olmuşdur.

Bir faktı fəxrlə qeyd etmək lazımdır ki, O, sovet dövründə sərhəd qoşunlarında ilk azərbaycanlı zabit olmuşdur. General-mayor M.C.Nəsirov 1987-ci ilin iyununda 65 yaşında istefaya çıxmışdır.

M.Nəsirov Respublikamızda veteran hərəkatının inkişafına da böyük tövhələr vermişdir. Bu gün biz qürurla deyə bilərik ki, Mustafa Nəsirov 1987-ci ilin mart ayında Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının ilk sədri seçilmişdir.






Onun veteranlara göstərdiyi diqqət və qayğı bugünki veteran hərəkatının təməli olmuşdur. Biz, Mustafa Nəsirovun Bakı Təşkilatından Respublika səviyyəsinə yüksəltdiyi təşkilatda fəaliyyət göstərməyimizdən qürür duyur, onun yaratdığı ənənələri bu gün də yaşatmağa çalışırıq.

Mustafa Nəsirovun həyat və fəaliyyətindən bəhs edən bir neçə kitab yazılmış, sənədli və bədi film çəkilmişdir. Vətən qarşısındakı xidmətlərinə Mustafa Nəsirov Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Şöhrət" ordeninə layiq görülmüşdür. Veteranlar heç bir zaman bu böyük insanın Azərbaycan naminə xidmətlərini unutmurlar. O bizim qəlbimizdə bu gün də yaşayır, sabah da yaşayacaq və nəsillərə nümunə kimi tanıdılacaqdır".

Daha sonra çıxış üçün söz İctimai Televiziya və Radio yayımları şirkətinin direktoru Cəmil Quliyevə verildi. C.Quliyev M.Nəsirovun xidmətlərindən, həmçinin ictimai fəaliyyətindən bəhs etdi.

General-mayor Abbasəli Novruzov Mustafa Nəsirovla bağlı xoş xatirələrini yada saldı, onun peşəkar hərbiçi olmasından, əsl sərhədçi rəşadətindən danışdı. Bildirdi ki, müstəqil Azərbaycan Respublikasının Sərhəd Qoşunlarının qurulmasında və inkişafında M.Nəsirovun danılmaz rolu olmuşdur.

A.A.Qritçenko, Soltan Məmmədov və başqaları çıxışlarında Mustafa Nəsirovun keçdiyi mənalı ömür yolundan bəhs etdi. Onunla bağlı xatirələrini çatdırdılar.

Tədbirin sonunda bir neçə şəxs Respublika Veteranlar Təşkilatının təsis etdiyi yubiley medalları ilə təltif edildi.

AZƏRBAYCAN VETERANI

# İkinci Dünya müharibəsi zamanı həlak olmuş azərbaycanlıların xatirəsi əbədi yaşayacaq




Azərbaycanın hərb tarixində İkinci Dünya müharibəsində azərbaycanlıların göstərdiyi qəhrəmanlığın xüsusi yeri vardır. Ancaq alman faşizmi üzərində tarixi qələbədən 71 ildən artıq vaxt keçməsinə baxmayaraq, həmin müharibədə iştirak etmiş azərbaycanlıların bir hissəsinin taleyi bugünədək aydınlaşmamış qalır. Onlar arasında keçmiş SSRİ-nin bir sıra ərazilərində, o cümlədən Moldovada döyüşənlər də olmuşdur. Moldova Respublikasında Azərbaycanın bu ölkədəki səfirliyinin yaxından iştirakı ilə aparılan araşdırmalar nəticəsində vaxtılə itkin düşmüş sayılan soydaşlarımızdan 206 nəfərinin taleyinə aydınlıq gətirilmiş, onların kimlikləri, təvəllüd tarixləri, rütbələri, hərbi xidmətə çağrıldıqları tarix, məntəqələr, dəfn yerləri müəyyən olunmuş, sənədlərinin saxlandığı arxivlər dəqiqləşdirilmişdir.




Bu münasibətlə keçirilən tədbir başlanmazdan əvvəl Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbirdə, Moldova Respublikasının Azərbaycandakı səfiri cənab George Luka, Türkiyənin Müharibə Veteranları Dərnəyinin Qars vilayəti üzrə rəhbərləri Yüksəl Öztürk, Munis Acay və Məvlud Kara, Azərbaycanın Moldova Respublikasındakı sabiq səfiri Namiq Əliyev, Azərbaycan Respublikası 2 saylı İnzibati İqtisad məhkəməsinin sədri Çingiz Bəşirov, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitunun direktor müavini, professor Cəbi Bəhramov, Respublika Hərbi Prokurorluğunun şöbə rəisi ədliyyə polkovniki Toğrul Hüseynov, İkinci Dünya, Qarabağ, Əfqanıstan müharibəsi, əmək və Silahlı Qüvvələr veteranları, ziyalılar, gənclər, media nümayəndələri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov açaraq demişdir: “II Dünya müharibəsində faşizm üzərində qələbəyə Azərbaycan böyük töhfə vermişdir. Azərbaycanlılar bu müharibədə əsl rəşadət, igidlik göstərmiş, onlardan 127 nəfəri Sovet İttifaqı qəhrəmanı adına, on minlərlə soydaşımız orden və medallara layiq görülmüşlər. Azərbaycanlıların döyüş yolu həm də Moldovadan, bu torpaqların faşist işğalından azad Azərbaycanın Moldova Respublikasındakı səfirliyinin yaxından iştirakı ilə aparılan araşdırmalar nəticəsində vaxtılə itkin düşmüş sayılan soydaşlarımızdan 206 nəfərinin taleyinə aydınlıq gətirilməsi çox böyük hadisədir.



Respublika Veteranlar Təşkilatı II Dünya, Qarabağ, Əfqanıstan müharibələrində döyüşmüş, həlak olmuş, itkin düşmüş əsgər və zabitlərimizin taleyinə aydınlıq gətirilməsi istiqamətində ardıcıl iş aparır. Ötən il Moldova Respublikasında və Rusiya Federasiyası ərazisində həlak olmuş azərbaycanlı döyüşçülərin dəfn edildikləri yerlərin müəyyən olunması bizi olduqca sevindirdi. Artıq qələbə günündə, digər bayramlarda həmin ərazilərdə yaşayan soydaşlarımız, eləcə də yerli ictimaiyyətin nümayəndələri həmin məzarları ziyarət edirlər, üstünə gül dəstəsi qoyurlar. Bu imkan, döyüşmü ruhlarının şad olması həmin insanların doğmaları, yaxınları ilə yanaşı bizim hər birimizin qəlbini sevindirir. Allah onlara rəhmət eləsin”.

Azərbaycanın Moldova Respublikasındakı sabiq səfiri Namiq Əliyev öz çıxışında soydaşlarımızdan 206 nəfərinin taleyinə aydınlıq gətirilməsində Moldova Respublikasının dövlət orqanlarının göstərdiyi köməklikdən, səfirliyin bu istiqamətdəki fəaliyyətindən danışdı. Bu insanların taleyinin aydınlaşdırılmasının doğurduğu hisslərin əvəzedilməz olduğunu vurğuladı.

Çıxış edən İkinci Dünya müharibəsi veteranı A.A.Qritçenko cəbhə xatirələrini yada saldı, döyüşçülərimizin şücayətindən, rəşadətindən danışdı. Bildirdi ki, Azərbaycanın öz döyüşçü oğullarını unutmaması, onların taleyinə gec də olsa aydınlıq gətirilməsi təqdirəlayiq işdir. Respublika Veteranlar Təşkilatının bu fəaliyyətlərə yaxından dəstək verməsi, belə tədbirlər keçirməsinin gənclərin hərbi vətənpərvərlik tərbiyəsində çox böyük rolu vardır.

Çıxış edən II dünya müharibəsində Moldovoda döyüşmüş Veteran İsmayıl Fərəcov müharibə ilə bağlı xatirələrini bölüşdü.

Moldova Respublikasında döyüşlərdə həlak olmuş Sumqayıt şəhərindən cəbhəyə yola düşmüş Rzayev Oruc Şirin oğlunun, Xəzər rayonundan cəbhəyə getmiş Abbasov Vəli Abbas oğlunun yaxınları (Rzayev Oruc Şirin oğlunun bacısı oğlu Sərxan, Abbasov Vəli Abas oğlunun qardaşı oğlu Abasov Vəli İmaməli və onun qardaşı Əfqan) çıxış edərək doğmalarının taleyinə aydınlıq gətirilməsinə, xeyirxah işə görə Azərbaycanın Moldova Respublikasındakı səfirliyinin əməkdaşlarına öz minnətdarlığını çatdırdılar, bunun Vətən qarşısında həqiqi xidmət olduğunu bildirdilər.

Daha sonra çıxış edənlər Azərbaycanın İkinci Dünya müharibəsində iştirakından, azərbaycanlıların keçdiyi döyüş yolundan bəhs etdilər, Moldova Respublikasında Azərbaycanın bu ölkədəki səfirliyinin yaxından iştirakı ilə aparılan araşdırmalar nəticəsində vaxtılə itkin düşmüş sayılan soydaşlarımızdan 206 nəfərinin taleyinə aydınlıq gətirilməsini böyük hadisə kimi qiymətləndirərək bu xeyirxah işdə, eləcə də “Xatirə kitabı”nın hazırlanmasında əməyi olanların hamısına dərin təşəkkürlərini bidirdilər.

Tədbirin sonunda bir neçə şəxs Respublika Veteranlar Təşkilatının təsis etdiyi yubiley medalları ilə təltif edildilər.



# Sınaqlardan keçən ömür Nüsrət İbrahimov - 70

Nüsrət Şahbaz oğlu İbrahimov 1946-cı ildə o vaxtki Ermənistan SSR-in Basarkeçər rayonunun Yarpızlı kəndində anadan olmuşdur. 1948-1953-cü illərdə



Azərbaycanlıların Ermənistandan, deportasiya edilməsi nəticəsində 1949-cu ildə İbrahimovlar ailəsi Gədəbəy rayonunun Saratovka kəndinə köçür. Nüsrət hələ uşaqlıqdan torpaq itkisinin, vətən dərdinin nə demək olduğunu duyub,elə bu səbəbdən hərbçi olmağı qarşısına məqsəd qoyub.

Orta məktəbi bitirib, hərbi xidmətini başa vurduqdan sonra Leninqrad (indiki Sankt Peterburq) Ali hərbi məktəbinə daxil olur və təhsilini başa vurduqdan sonra öz vəzifə borcunu yerinə yetirməyə başlayır.

Uzaq Şərq, Amur, Xabarovsk, Zabaykalye vilayətlərində bölük komandirinin müavini, bölük komandiri, şöbə rəisi, qərargah rəisinin müavini, hərbi hissə komandirinin müavini vəzifələrində çalışır. 1988-ci ildə təxris olunaraq Azərbaycana qayıdır. BAPO -da hərbi işlər üzrə rəis vəzifəsində işləyir. 1991 -ci ildə Qarabağda qızğın döyüşlər getdiyi bir zamanda əlinə silah alıb döyüşməyi qərara alır, könüllü Müdafıə Nazirliyinə müraciət edir. N saylı korpusun döyüş hazırlıq şöbəsinin rəisi təyin olunur.

Bu zaman rayonların əksəriyyətində könüllü dəstələr vuruşurdu. Onlar yalnız yerli İcra Hakimiyyətinə tabe idilər. Dadaş Rzayev Müadifə Naziri təyin olunduqdan sonra ordudakı hərc - mərcliyi aradan qaldırmaq üçün könüllü dəstələri Milli orduda birləşdirir. Həmin vaxtda Gədəbəy rayonunun sərhədləri tez - tez düşmən tərəfindən güclü qüvvə ilə pozulurdu. Bu zərbələrin qarşısını almaq üçün İbrahimov Gədəbəyə gələrək Başkəndin almmasında iştirak edir. Həmin əməliyyata üç batalyon cəlb olunur. Planlı əməliyyat hücumu uğurlu alınır. Başkənd əməliyyatı başa çatdıqdan sonra İbrahimov Müdafıə Nazirinin köməkçisi təyin olunur, lakin az sonra könüllü olaraq Tərtər - Ağdərə bölgəsində briqada komandirinin müavini vəzifəsində xidmətini davam etdirir.

Bir faktı qeyd edək ki, Tərtər-Ağdərə bölgəsində üç hərbi hissə fəaliyyət göstərib. Döyüşdə dönüş yaratmaq üçün İbrahimov həmin hərbi hissələrlə əlaqə yaradır. Dekabrın 22-23-ü Gödəkburun zirvəsini ələ keçirmək uğrunda gərgin mübarizə gedir. İbrahimov bu zaman ayağından yaralandığına baxmayaraq döyüş meydanını tərk etmir. Tərtər - Ağdərədə gedən ağır döyüşlərdə ikinci dəfə ağır yaralanan İbrahimov kontuziya alır və ordudan tərxis olunur. 1994-cü ildə 26 və 156 saylı məktəblərdə hərbi müəllim işləyir. 1995-ci ildən Əzizbəyov rayon (indiki Xəzər rayonu) Müharibə Əmək Silahlı qüvvələr və Hüquq mühafizə orqanları Veteranları Təşkilatının üzvüdür. 15-ildən artıqdır ki, təşkilatının sədridir. Vətənin layiqli oğlunun sinəsini döyüş medalları bəzəyir, anadan olmasmm 65-illiyi münasibəti ilə " Dədə Qorqud " Milli fondunun təsis etdiyi "Vətən övladı" medalı ilə təltif olunub.Yaşının bu müdrik çağında Nüsrət müəllimi 70-illik yubileyi münasibəti ilə təbrik edir, xeyirxah və nəcib işində uğurlar arzulayırıq. Sağ ol, Vətən oğlu!

## TƏBRİK EDİRİK

**Veteran**
**Mirzəliyev Məmməd Hüseyn oğlunu**
90 yaşının tamam olması münasibəti ilə təbrik edir ona cansağlığı arzu edirik.

Nərimanov rayon Veteranlar Təşkilatının sədr müavini
**İsrafilova Sevil Məmməd qızını**
ad günü münasibəti ilə təbrik edir, ona cansağlığı, fəaliyyətində müvəffəqiyyətlər arzu edirik.

## Veteranların sevimli həkimi

Bu ilin oktyabr ayının əvvəlində kəskin bronxit dioqnozu ilə Dövlət Təhlükəsizlik Xidmətinin hospitalının terapiya şöbəsində şöbə müdiri Nigar Bağırovanın nəzarəti altında müalicə olundum. Həkim N.Bağırova yüksək təşkilatçılıq bacarığına malik olduğu üçün xəstələr və tibb personalı arasında xüsusi hörmət və nüfuza malikdir. Hər gün palataları gəzir, müalicə alan xəstələrin problemlərini dinləyir, həlli istiqamətində müəyyən işlər görür.

Həkim N.Bağırova son dərəcə mehriban və qayğıkeş insandır. Şöbədə müalicə olunan veteranlardan Mahmudov Emil, Bəylərov Cabbar, və digərləri həkim N.Bağırovanı savadlı, bacarıqlı, dövlət mənafeyini şəxsi mənafeyindən üstün tutan bir şəxs kimi xarakterizə edirlər. Yuxarıda qeyd olunanları nəzərə alıb öz növbəmdə Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin terapiya şöbəsinin müdiri həkim Nigar Bağırovaya və kollektivinə minnətdarlığımı və təşəkkürümü bildirirəm.

**Adil Babaşov**
Respublika Veteranlar Təşkilatının baş mütəxəssisi, Qarabağ və Silahlı Qüvvələr veteranı

# Veteranlara qayğı

Ümummilli liderimiz Ulu Öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə ikinci dəfə gələndə unudulmuş müharibə və əmək veteranları haqqında çıxardığı qərardan sonra onlar sanatoriyalarda, pansionatlarda və veteranlar xəstəxanasında güzəştli şərtlərlə müalicə olundular. Təməli Ulu öndər tərəfmdən qoyulmuş Azərbaycan müharibə və əmək veteranları xəstəxanasında yaşlı nəslin nümayəndələri müalicə alırlar. İndi də Azərbaycan Prezidenti İlham Əliyev cənabları müharibə veteranlarına xüsusi qayğı göstərir. Mən uzun illərdir ki, müharibə və əmək veteranları xəstəxanasında müalicə olunuram. Son bir neçə ildir ki, xəstəxananın rəhbərliyində dəyişikliklər aparılmış, xəstəxananın müalicə həkimi Xuraman Zamanova öz bilik və bacarığına görə həmin xəstəxanaya baş həkim təyin edilmişdir. Xəstəxananın korpuslarında, xəstə otaqlarında olan bütün avadanlıqlar yenisi ilə əvəz edilmiş və xəstələrin istifadəsinə verilmişdir. Bir neçə gündür ki, həmin xəstəxanada müalicə olunuram. Xəstəxana rəhbərliyinin göstərişi ilə həkimlər, tibb bacıları və digər xidmətçilər öz iş yerlərinə təhkim olunmuşlar. Belə həkimlərdən biri də Saleh Quliyev cənabdır. Hərbi həkim kimi bu xəstəxanada 10 ildən artıqdır ki, işləyir. Gözəl ailə sahibi olan Saleh həkim xüsusi istedada malikdir. Xəstələri qəbul edərkən dəqiq diaqnoz qoyması ilə yanaşı, onların xasiyyətlərini də öyrənir. Hər bir xəstənin otaqlara yerləşdirilməsini xəstələrin xəstəliyinə, xasiyyətinə və yaş həddinə görə müəyyən edir. Beləliklə, Saleh həkim xəstələrin ikinci müalicəsini təyin edir. Xəstələri vaxtaşırı yoxlamaqla onların qayğısına qalır. Hər gün xəstəxanada 240-250 nəfər xəstə müalicə alır. Həkimlərdən Gülşən Əliyeva, Zahidə, Gülnarə Mahmudova, tibb işçilərindən Xəyalə İsayeva, Təhminə Kərimova, Sevinc Qafarova xəstələrin müalicə olunmasında xüsusi rol oynayırlar. Xəstəxananın baş həkimi xəstələrin yataq otağında tez-tez baş çəkir, mərtəbələrdə televizor qoyulmuş, xəstələr üçün stollar ayrılmış, xəstəxananın həyətində gözəl gözəl su hovuzları yaradılmış, xəstələr üçün skamyalar qoyulmuşdur. Hər bir xəstə müalicə aldığı otağın açıq zalında qoyulmuş televizorda öz zövqünə uyğun verilişlərə baxır və yaxud xəstəxananın həyətində qoyulmuş skamyalarda əyləşərək istirahət edirlər. Baş həkim rəhbərliyinin gözəl cəhətlərindən biri də budur ki, xəstəxananın yemək bişirən işçilərini də yenidən təyin etmişdir, onların hər biri xəstəxanaya daxil olarkən tibbi müayinədən keçirlər. Xoş simalı insanlar işə cəlb edilir. Veteranlar xəstəxanasının baş həkimi dərman maddələrinin alınmasına, yeməklərin hazırlanmasında istifadə ediləcək məhsulların alınmasına və keyfıyyətli yeməklər bişirilməsinə xüsusi diqqət və nəzarət yetirir. Müalicə otaqlarında və yemək vaxtı yeməkxanada xəstələrə xüsusi diqqət göstərilir. Xəstəxananın kitabxanası da vardır. Orada həmişə kitablar, jurnallar oxuyurlar. Yay aylarında xəstələrə nümunəvi tibbi xidmətlər göstərilməklə yanaşı, onlarm daha mənalı istirahəti məqsədilə Bakı şəhərinin görməli yerlərinə səyahətlər təşkil olunur. Bundan əlavə, müxtəlif mədəniyyət işçiləri xəstəxanaya dəvət edilir və onlarla maraqlı görüşlər keçirilir. Bir şeyi də xüsusi olaraq qeyd etmək istəyirəm ki, baş həkim Xuraman xanım müntəzəm olaraq hər gün xəstəxananın bütün palatalarına baş çəkməklə, hər bir xəstə ilə fərdi söhbət apararaq onların problemləri ilə maraqlanır və yerindəcə həll etməyə çalışır. Bu xəstəxana hər ay 750 nəfərə yaxın xəstəni müalicə edir. Veteranların arzusu xəstəxananın gələcəkdə ən müasir, yeni tipli mədəniyyət və müalicə ocağına çevrilməsidir.



***Adil Zeynalov***
*Naxçıvan MR Kəngərli rayonu, Şahtaxtı kəndi Müharibə Əmək Veteranlar təşkilatının sədri*

AZƏRBAYCAN VETERANI

# Onlar Berlində Braudenburq qapıları üstünə qələbə bayrağı sancıblar



Onlar Berlində Brandenburq qapıları üstünə qələbə bayrağı sancıblar...

Rusiyada nümayiş olunan intellektual verilişlərin birində iştirakçılara azərbaycanlıların Böyük Vətən Müharibəsi zamanı göstərdikləri şücaətdən bəhs edən sual təqdim olunub: “1945-ci il mayın 2-də leytenant Məcidovun rəhbərliyi ilə dörd döyüşçü məhz bunu edib...” İştirakçılardan biri suala dərhal cavab verib: “Berlində Brandenburq qapıları üstünə qələbə bayrağı sancıblar”. I Belorusiya və III Ukrayna cəbhəsinə daxil olmuş hərbi birləşmələrin keçdiyi döyüş yoluna aid sənədlərə istinadən Berlinə ilk dəfə məhz azərbaycanlılardan ibarət 416-cı diviziyanın(Taqanroq) daxil olduğunu göstərən faktları təfsilatı ilə diqqətinizə təqdim edirik.

Diviziyanın formalaşdırılması: Zaqafqaziya Hərbi Dairəsinin komandanlığının əmrinə əsasən 1942-ci ilin 22 fevral tarixdən Azərbaycan SSR-in Ucar rayonunda 416-cı milli diviziyanın formalaşdırılmasına başlanılmışdır. Diviziyanın şəxsi heyətin 92%-i Azərbaycanlılar idi.

Döyüş yolu: 416-cı milli diviziyanın döyüş yolu Qafqazdan başlanmışdır. Diviziya 1942-ci ilin sentyabrın əvvəllərində 44-cü ordunun tərkibinə daxil edilərək Şimali Qafqazda Xasavyurt rayonuna göndərilmişdi. Diviziyanın cəbhəyə getdiyi vaxt Qafqaz uğrunda döyüşlərin ən şiddətli dövrü idi. Almaniyanın "Cənub" ordu qrupu komandanlığına 1942-ci ilin 25 sentyabrında Bakını zəbt etmək əmri verilmişdi. 1942-ci ilin oktyabrında 416-cı diviziya 58-ci ordunun tərkibinə daxil edilərək, Sulak çayının şərq sahilində düşmənin Mahaçqala istiqamətindəki hücumlarına qarşı mövqedə yerləşdirildi. Həmin ilin noyabrında diviziya yenidən 44-cü ordunun tərkibinə daxil edildi və təcili olaraq Terekstansiyası zonasında yeni döyüş xəttinə göndərildi. 1942-ci ilin 30 noyabrında diviziya hücuma keçdi.Taqanroqun azad edilməsi: 1943-cü ilin yanvarının əvvəlinə qədərki dövrdə diviziyanın döyüşçüləri Qafqazdan Azov sahilinə qədərki məsafəni döyüşlərlə keçərək, növbəti döyüşlərə hazırlaşdılar. Bu dövrdə diviziyanın komandirlərindən biri polkovnik (az sonra general-mayor) Tərlan Əliyarbəyov idi. 1942-ci ilin noyabrında Şimali Qafqazdan başlanan əks-hücumlar nəticəsində üç ay ərzində Şimali Qafqaz düşməndən azad edildi və Rostov istiqamətində döyüşlərə başlamaq üçün zəmin yarandı.1943-cü ilin 21 fevralın-



da 416-cı diviziya əməliyyatlarının II dövründə hazırlığa başladı. Bunun üçün diviziyaya Azərbaycandan 1500 nəfər yeni döyüşçü göndərilmişdi. 416-cı diviziya 1943-cü ilin 17 avqustunda Taqanroq istiqamətində başlanmış hücumlarda iştirak edirdi və avqustun 30-da diviziya 28-ci ordunun tərkibində Taqanroq şəhərinin düşməndən azad edilməsində böyük qəhrəmanlıq göstərdi və bu qələbəyə görə ona "Taqanroq diviziyası" fəxri adı verildi. 1943-cü il sentyabr ayının 7-də 416-cı Taqanroq atıcı diviziyası hitlerçilərin 3-cü Dağ atıcı diviziyası tərəfindən müdafiə olunan güclü istehkam xəttinə yaxınlaşdı. Düşmən istehkamları Markupol və Osipenko şəhərlərinə gedən yolları bağlamışdı. Sentyabrın 8-9-da Azərbaycan diviziyası düşmənin müqavimətini qırdı. Faşistlərin 10 əks-hücumuna mərdliklə sinə gərən döyüşçülər qazanılmış mövqeləri əldə saxladılar. Bu döyüşlərdə diviziya 4 mindən artıq düşmən əsgər və zabitini məhv etmiş, külli miqdarda döyüş texnikası ələ keçirmişdi. Həmin döyüşlərdə kapitan Firuddin Süleymanov əsil qəhrəmanlıq nümunəsi göstərmiş, əlbəyaxa döyüşdə bir qrup döyüşçü ilə düşməni geri çəkilməyə məcbur etmiş, özü isə həlak olmuşdu. F.Süleymanov ölümündən sonra I dərəcəli Vətən müharibəsi ordeninə layiq görülmüşdü. Milli diviziya 1943-cü ilin sentyabrında Azərbaycandan öz tərkibinə 2500 nəfər yeni döyüşçü heyəti aldı və müvafiq hazırlıqdan sonra oktyabrın 10-dan başlayaraq növbəti döyüşlərə başladı və Nikolayev şəhərinin düşməndən azad edilməsində fəal iştirak etdi.Qəhrəmanların diviziyası: 416-cı diviziya 1943-cü ilin oktyabrında düşməni Konstantinovka ətrafında darmadağın edib, tank hissələrinin köməyi ilə Melitopolu azad etmişdi. Diviziya "Qırmızı Bayraq" ordeni ilə təltif olunmuşdu. Melitopol uğrunda döyüşlərdə pulemyotçu Ağaşirin Cəfərov xüsusən fərqlənmişdi. O, 1943-cü il ərzində 500-dən artıq faşist öldürmüşdü. A.Cəfərov SSRİ Ali Soveti Rəyasət Heyətinin 1943-cü il 1 noyabr tarixli Fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı fəxri adı almışdı. 1944-cü ilin yanvarında 416-cı diviziya 3-cü Ukrayna cəbhəsində 5-ci zərbə ordusu tərkibində hücuma keçərək, Dnestr çayını keçdi və döyüşlərdə Dnepr çayı sahillərinə çıxdı. Dneprin keçilməsində qəhrəmanlıq göstərdiklərinə görə Mikayıl Ələkbərov, Bahaddin Mirzəyev, Ablul Vəliyev, Fəriz Səfərov və Ağaşirin Cəfərov Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görüldülər. Baş çavuş Həsən Rəhimov isə "Qırmızı bayraq" ordeni ilə təltif olundu. Həmin ilin 9 aprelində diviziya Odessa şəhəri yaxınlığına çatdı və onun düşməndən azad edilməsində fəal iştirakına görə II dərəcəli Suvorov ordeni ilə təltif edildi. 1944-cü ilin yayından başlayaraq 416-cı diviziya 3-cü Ukrayna cəbhəsi tərkibində məşhur Yassa-Kişinyov döyüş əməliyyatında və Moldaviyanın paytaxtı Kişinyov şəhərinin və bütün Moldaviyanın azad edilməsində fəal iştirak etdi. 1945-ci ilin martında diviziyanın 1054-cü alayı "Qırmızı bayraq" ordeni, 1368- ci alayı-"Boqdan Xmelnitski" ordeni, 44-cü divizionu isə "Aleksandr Nevski" ordeni ilə təltif edilmişdi. 1945-ci ilin yanvarında Sovet ordusu bütün cəbhələrdə hücuma keçmişdi və əsas istiqamət Varşava-Berlin istiqaməti idi. Berlin uğrunda döyüş: 416-cı diviziya I Belorusiya cəbhəsinə daxil olan 5-ci zərbə ordusu tərkibində Visla çayı istiqamətində hücumu davam etdirərək, Varşavanın azad edilməsində iştirak etdi və Oder çayının qərb sahilinə çıxaraq, düşmənin Kyustrin şəhərini zəbt etdi. Berlinə ilk dəfə daxil olan hərbi hissələr içərisində 416-cı diviziya var idi. Diviziya mayın 1-də Berlinə daxil oldu. Berlin uğrunda döyüşlərdə kapitan X.Gülməmmədovun batalyonu xüsusilə fərqləndi. Kayzerin sarayı üstündə Qələbə bayrağını sancan leytenant Vahab Osmanov düşmən gülləsindən həlak oldu. Brandenburq qapıları üstünə mayın 2-də qələbə bayrağını taxanlar isə leytenant A.Məcidov və onun döyüşçüləri - Məmmədov, Əhmədzadə oldular. Buna qədər isə diviziyanın əsgərləri, Reyxsbank, Daxili İşlər Nazirliyi, Berlin Dövlət Universiteti, SSRI-nin keçmiş səfirliyinin binası, Maliyyə Nazirliyi və digər dövlət qurumlarının binalarını azad etmişdilər. Brandenburq qapıları önündə keçirilmiş mitinqdə general V.P.Züvanov çıxış edərək qəhrəman azərbaycan oğullarından danışıb: "Berlin oğrunda tarixi döyüşdə sonuncu güllə məhz burada - Brandenburq qapıları önündə atıldı. Bu sonuncu gülləni də məhz qəhrəman Azərbaycan xalqının övladları atdı". Qafqazdan Berlinədək döyüş yolu keçmiş 416-cı Azərbaycan Milli diviziyası və onun alaylarına müharibə illərində general-mayorlar Tərlan Əliyarbəyov, Heybət Heybətov, Hacıbaba Zeynalov (diviziyanın qərargah rəisi) komandirlik etmişdir.

**MƏMMƏD MİRZƏLİYEV**

## ELAN

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə “Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!” adlı layihənin icrasını təmin etmək məqsədi ilə 01-02 noyabr 2016-cı il tarixində Şirvan şəhərində seminar-müşavirə keçiriləcəkdir. Seminar-müşavirə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının əməkdaşları tərəfindən həyata keçiriləcək.

Layihənin rəhbəri ehtiyatda olan general-mayor Dadaş Rzayevdir.

Layihə Qarabağ uğrunda müharibədə şücaət göstərərək, Azərbaycanın Milli Qəhrəmanları adına layiq görülmüş, eyni zamanda, 2016-cı ilin aprel ayında şəhid olan hərbçilərimizin həyatından və döyüş yolundan bəhs edir.

Layihənin əsas mahiyyəti xalqımızın qəhrəmanlıq tarixində mühüm xidmətləri olan Azərbaycan övladlarının keçdiyi şərəfli həyat yolunun yeniyetmə və gənclərə daha yaxından tanıdılması, onlarda xalqa, dövlətə sədaqət, tarixə hörmət, vətənpərvərlik ruhunun gücləndirilməsi, həmçinin onlar arasında milli-mənəvi dəyərlərimizin, dövlətçilik ənənələrimizin təbliği istiqamətində dövlət orqanlarının apardığı işə dəstək verilməsidir.

Seminar-müşavirəyə Şamaxı, Şirvan, Ucar, Zərdab, Hacıqabul, Qobustan, Salyan, İmişli, Saatlı, Sabirabad, Beyləqan şəhər (rayon) veteran təşkilatlarının sədrləri dəvət olunublar.

Eyni zamanda seminar-müşavirədə Şirvan şəhər Veteranlar Təşkilatının əməkdaşlarının, həmin rayonun fəal gənclərinin, veteranlarının, müvafiq dövlət və ictimai təşkilatların nümayəndələrinin iştirakı nəzərdə tutulur.

# Ömrün ahıllıq zirvəsi



**"Dağlar qoynunda, qoynunda"... Bir aşıq musiqisində səslənən sözlərdir bunlar... Axı, söhbət açacağım Şabran rayonunun qədim tarixə malik Pirəbədil kəndi də dağlar qoynunda, rayon mərkəzindən 20 km aralıda, 2000 metr yüksəklikdə yerləşən Pirəbədil kəndinin tarixinə elə səhifələr yazılıb ki, bu kəndin sakinləri ötənləri-dünənləri ilə fəxr edə bilərlər.**

Tam yəqinliyi ilə deyə bilərik ki, dünyanın saysız - hesabsız ölkələrinin heç birində elə bir dağ kəndi yoxdur ki oradan birdənbirə iki böyük vəzifə sahibi çıxsın və onlar həm də doğmaca bacı-qardaş olsunlar. Bu da bir tarixdir ki, Zaqafqaziya SSFR Xalq Komissarı Sovetinin sədri olmuş Qəzənfər Musabəyov və onun bacısı Azərbaycan SSR Ali Məhkəməsinin sədri Ayna Sultanova Pirəbədil kəndində boya-başa çatmışlar.

Pirəbədilin tarix səhifəsində onun başını ucaldan övladları yetərincədir. Məşhur musiqiçi, bəstəkar Tofiq Quliyev, şair Əhəd Muradxanlı, "Şöhrət" ordenli, Şabran rayon İcra Hakimiyyətinin sabiq başçısı Sündüz Babayeva və s.

Pirəbədildə qapılara kilid vurulmur. Həyətləri çəpərləyib, qapını qonaq üzünə bağlamaq burada qəbul edilməzdir. Mənim qələmə aldığım bu yazını Şabranın qədim tarixə malik Pirəbədil kəndi ilə başlamağım səbəbsiz deyil. Axı haqqında söhbət açdığım halal zəhməti ilə ad-san qazanmış, sadə peşə sahibi olmuş Vahəddin Adıgözəlov da məhz bu kənddə anadan olub.

Vahəddin Adıgözəlov 1940-cı ildə Pirəbədil kəndində dünyaya gəlib. Atası Oruc kişi kolxozda çalışmış anası evdar qadın olmuşdur. Vahəddin uşaq yaşlarında yetim qalmış iki yaşında olarkən anası dünyasını dəyişmişdir.

Həddindən artıq cılız və boyu çox balaca olan Vahəddin 10 yaşında məktəbə getmişdir. 16 yaşında Sumqayıt şəhərinə göndərilrniş və o burada bənnalıq sənətinə yiyələnmişdir. Vahəddin az müddət ərzində bənna kimi Sumqayıt şəhərinin tikintilərində çalışır,öz zəhmətsevərliyi ilə təcrübəli ustaların iş yoldaşlarının hörmətini qazanır. Tezliklə gənc, bacarıqlı bir usta kimi tanınır.

O, 1960-cı ilcə hərbi xidmətə çağrılır, 1963-cü ildə əsgəri xidmətdən tərxis olunaraq yenidən gənclər şəhəri Sumqayıta qayıdır.

Vahəddin Adıgözəlov Sumqayıtda yenidən əmək fəaliyyətinə başlayır. İşgüzarlığı ilə yeni-yeni nailiyyətlərə imza atır. Lakin gənc Vahəddin 1968-ci ildə ailə vəziyyəti ilə əlaqədar Şabrana qayıdır və az müddətdə rayon təmir tikinti idarəsinə dəvət alır.

Vahəddin Adıgözəlov işlədiyi dövrdə haqqında vaxtaşırı "Qurucu"rayon qəzetində yazılar dərc olunur. İşinə məsuliyyətlə yanaşdığı üçün onu çalışdığı idarədə partiya komitəsinin sədr müavini, rayonda ticarət komitəsinin sədri, yoldaşlıq məhkəməsinin sədr müavini, xalq drujina qərargahının komandiri kimi ictimai işlərə irəli çəkilir.

Gənc olmağına baxmayaraq, tapşırılan işin öhdəsindən bacarıqla gələn Vahəddin bir sıra Fəxri fərmanlara, diplomlara layiq görülür. Yaxşı işlədiyinə görə iki dəfə şəhər, iki dəfə də rayon sovetinə deputat seçilir. Onun zəhməti layiqincə qiymətləndirilir,1988-ci ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif olunur.

Artıq bir neçə ildir ki, Vahəddin Adıgözəlov təqaüdə çıxıb. "Əmək Veteranı" adına layiq görülüb. Ömrünün ahıl çağını yaşayan Vahəddin Adıgözəlov Şabran rayonundada veteranların bütün tədbirlərində fəal iştirak edir.

# İstefada olan general - mayor Əli Kazımov vəfat edib



Azərbaycan Silahlı Qüvvələrinə ağır itki üz verib. Uzun sürən xəstəlikdən sonra istefada olan general-mayor Əli İmran oğlu Kazımov 2016-cü il oktyabr ayının 26-da ömrünün 60-cı ilində vəfat edib. Əli İmran oğlu Kazımov 17 fevral 1956-cı ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Nürgüd kəndində anadan olub. 1973-cü ildə Bakı şəhərindəki 8 nömrəli orta internat məktəbini bitirdikdən sonra S.M.Kirov adına Qırmızıbayraqlı Xəzər Ali Hərbi-Dəniz Məktəbinə daxil olub və şturman fakültəsini müvəffəqiyyətlə başa vuraraq "mühəndis - şturman" ixtisasına yiyələnib.

Əli İmran oğlu Kazımov 1978-1989-cu illərdə Şimal Donanmasında xidmət edərək mühafizə gəmisində şturman, atom sualtı qayığında qrup komandiri, xilasedici gəmilər divizionu komandiri və maqnitsizləşdirmə gəmisinin komandiri vəzifəsinin icraçısı kimi göstərilən etimadı layiqincə doğruldub.

1989-1992-ci illərdə Leninqrad şəhərində Arxa Cəbhə və Nəqliyyat Hərbi Akademiyasının komandanlıq fakultəsində ali hərbi təhsil alan zabit Ə.İ.Kazımov SSRİ dağıldıqdan sonra könüllü olaraq 2-ci dərəcəli kapitan kimi Azərbaycana qayıtmış və 1992-ci ilin sentyabrından 1993-cü ilin noyabr ayınadək Hərbi Dəniz Qüvvələri qərargahının təşkilat-səfərbərlik və komplektləşdirmə bölməsinin rəisi vəzifəsində xidmətini davam etdirib.

1993-cü ilin dekabr ayından 1994-cü ilin sentyabr ayınadək cəbhə bölgəsində "N" nömrəli briqada komandirinin arxa cəbhə üzrə müavini vəzifəsində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak edib.

1995-ci ildə Bakı Ali Hərbi Dənizçilik Məktəbində "İqtisadiyyat və qoşun təsərrüfatı", "Qoşunların arxa cəbhəsi" kafedralarının rəisi, 1995-ci ilin iyun ayından isə Müdafiə Nazirliyi Təşkilat-Səfərbərlik İdarəsi rəisinin müavini və Təşkilat-Səfərbərlik İdarəsinin rəisi-Baş Qərargah rəisinin müavini vəzifəsini icra etmişdir.

Azərbaycan Respublikası Müdafiə nazirinin 25 fevral 1996-cı il tarixli əmri ilə Əli İmran oğlu Kazımova "1-ci dərəcəli kapitan" və Azərbaycan Respublikası Prezidentinin 25 may 1998-ci il tarixli əmri ilə "general-mayor" ali hərbi rütbəsi verilmişdir.

Sonralar Müdafiə nazirinin məsləhətçisi, Müşavirlər qrupunun müşaviri, İnspektorlar qrupunun inspektoru vəzifələrində xidmət edən general-mayor Əli İmran oğlu Kazımov 17 oktyabr 2014-cü ildə xəstəliyə görə istefaya buraxılmışdır.

Onun Vətən qarşısındakı xidmətləri yüksək qiymətləndirilərək 10 döyüş medalı ilə təltif olunub və müxrəlif mükafatlara layiq görülüb. Azərbaycan Respublikasının Silahlı Qüvvələr və müharibə veteranı idi. **Allah rəhmət eləsin!**

**Müdafiə Nazirliyi**

# Abbasov Yapun Xanbaba oğlu



*Şəkildə Masallı RVT-nin sədri Şiriyev Məmmədağa Məmmədəli oğlu və Abbasov Yapun Xanbaba oğlu. Qızılavar kəndi, 2015 - ci il.*

Masallı rayon müharibə, əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı bildirir ki, Abbasov Yapun Xanbaba oğlu qəfil xəstəlikdən sonra 29 sentyabr 2016-cı ildə 99 yaşında dünyasını dəyişdi. O, xasiyyətcə nikbin, yaşının 99 olmasına baxmayaraq həmişə əməksevər, mehriban, dövlətçiliyin təbliğində, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işində fəal iştirak edən biri olub. II dünya müharibəsi ilə hərbi xidmətə başlayan Abbasov Yapun, 1941-1945-ci il Böyük Vətən müharibəsində fəal iştirak edib və hərbi xidmətini Yaponiya ilə başlanan müharibədən sonra başa vurub doğma Vətəninə, kəndinə qayıdıb uzun illər kənd təsərrüfatı sahəsində çalışmışdır. Onun 100 illik yubileyini nəzərdə tutmuşduq,lakin fələk imkan vermədi.

O, rayonumuzun ən qocaman, ağsaqqal Böyük Vətən Müharibəsi iştirakçısı idi. Onu dərin hörmətlə anır, ailəsinə, yaxınlarına baş sağlığı veririk.

**Allah rəhmət eləsin!**

***MƏMMƏDAĞA ŞİRİYEV***
*Masallı rayon RVT-nin sədri, Qarabağ müharibəsi veteranı*

AZƏRBAYCAN VETERANI

# ЖИЗНЬ, ОТРАЗИВШАЯ ЭПОХУ



Главный показатель любого государства - это его способность обеспечить неуязвимость территории страны, безопасность населения от внешних угроз. Это сложная задача, зависящая от множества факторов. Однако, очевидно, что предпосылкой ее решения является наличие высокоорганизованных пограничных войск и профессионалов, посвятивших свою жизнь служению в этих войсках.

Пограничник - необычный военный, его служба проходит на периферии страны, на линии государственной границы. А это горы и леса, степи и пустыни, долины рек и морские берега. Суровую, рискованную во многих отношениях службу на границе могут выдержать только ответственные, высоконравственные люди, подлинные патриоты. Даже недлительную службу солдата на границе можно считать подвигом. И бесценным является подвиг тех, кто посвятил службе на границе всю свою жизнь. Именно к числу таких людей относится генерал-майор Мустафа Джафар оглы Насиров.

Генералу Насирову еще при жизни были посвящены очерки, повести, фильмы. Хорошо известна, например, повесть Ахмедага Муганлы "Семь листков древа жизни", изданная еще в 1984 г., на ее основе снят фильм "На родных берегах". Но в публикациях и фильме не нашло отражение многие стороны деятельности Насирова, поскольку большинство из них тогда считалось секретным.

Генерал Насиров родился 25 октября 1921 года в г. Дербенте в семье служащего. Окончив Дербентское педагогическое училище, он в 1938 году поступил в педагогический институт и с 1940 года работал учителем в Сабнавинской неполной средней школе. С началом Отечественной войны пришлось прервать учебу в Институте и преподавательскую деятельность. Насиров был призван в ряды Советской Армии, участвовал в боях под Москвой, затем был направлен на учебу в Саратовское пограничное училище, где за девять месяцев прошел трехлетнюю программу (в соответствии с требованиями военного времени) и стал офицером. Командная его деятельность началась в Киргизском округе, в горах Памира. В марте 1947 г. он был назначен военным комендантом города Фрунзе по войскам НКВД. В 1948 г. экстерном завершил высшее образование в Киргизском государственном педагогическом институте. В том же году был направлен в военную академию МГБ, по ее окончанию начал службу заместителем начальника отдела боевой подготовки в штабе Азербайджанского пограничного округа КГБ СССР.

Военная карьера Насирова росла стремительно. Он вскоре был назначен начальником штаба Пришибского пограничного отряда, затем начальником Нефтчалинского и впоследствии Нахичеванского пограничного отряда. Следует отметить, что Насиров был единственным азербайджанцем, выдвинутым на столь ответственные посты в пограничных войсках КГБ СССР.

Насиров был исключительно грамотным и волевым начальником, отлично знал войска, умел превосходно организовать взаимодействие отрядов и застав. Он предпочитал всегда лично следить за ходом учений с передового наблюдательного пункта. И каждый воин - пограничник знал, что их командир рядом.

Особенно ярко проявилась его деятельность в Нахичеванском пограничном отряде, которым он командовал с 1962 по 1968 гг. Анализируя состояние границы, он пришел к выводу о необходимости введения новых форм и способов ее охраны, в соответствии с новыми техническими возможностями. Речь шла о широком внедрении электронных систем контроля, наблюдения. Проводил эксперименты, показательные занятия в присутствии представителей старших штабов и управлений, добивался публикаций в общесоюзном журнале "Пограничник", в том числе в "Секретном сборнике статей" этого же журнала, а также в окружной газете, доказывая не безынтересность своих нововведений.

Вскоре Насиров был назначен пограничным комиссаром СССР по Нахичеванскому и Джульфинскому участкам, а также пограничным уполномоченным СССР на территории строительства с Ирано-Мараксинского и Мильско-Муганского гидросооружений. Ни на одного начальника отряда не возлагались одновременно три такие ответственные должностные обязанности.

Относясь с любовью к своему народу, он проявлял гибкость и смелость, чтобы облегчить бремя многочисленных ограничений пограничного режима, содействовал улучшению условий жизни и хозяйственной деятельности населения. Не случайно в 40 годовщину Нахичеванской автономной республики Насиров был награжден Почетной грамотой «За заслуги в развитии экономики и культуры Нахичеванской автономной республики», а в декабре 1967 года был удостоен ордена Красного знамени, что являлось редким случаем в мирное время.

В 70-е годы в Азербайджане наметилась активизация военно-патриотического воспитания молодежи, популяризация военной службы, офицерской профессии, началась масштабная подготовка национальных военных кадров. И все это делалось по инициативе Первого секретаря ЦК КП Азербайджана Гейдара Алиева.

В эти годы впервые на высокие воинские должности были выдвинуты азербайджанцы. Первым заместителем командующего Бакинским округом ПВО был назначен генерал-полковник Т.Я.Агагусейнов, командующим зенитноракетными войсками этого же округа - генерал-лейтенант Д.Г.Расулбеков, командующим Каспийской флотилией - вице-адмирал Г.Г.Касумбеков, начальником Бакинского высшего командного общевойскового училища генерал-лейтенант В.Э.Баршатлы. Получили звания генерал-лейтенанта председатель КГБ З.М.Юсифзаде и военком республики М.М.Касумов. В ноябре 1968 г. Насиров был назначен заместителем начальника оперативно-войскового отдела, а в декабре 1972 г. заместителем начальника войск Краснознаменного Закавказского пограничного округа КГБ СССР, в 1974 г. получил звание генерал-майора. Тесные связи с руководством партийных, советских органов пограничных районов, позволили Насирову выдвигать подготовленные национальные кадры в погранвойска, принимать активное участие в общественно-политической жизни республики.

При поддержке и помощи руководства республики ему удалось развернуть строительство жилых, служебных зданий, оздоровительных и спортивных комплексов, целых военных городков в Садараке, Шаруре, Нахичевани, Пришибе, Ленкоране, Мардакянах, Баку, которые пригодились впоследствии пограничным войскам независимой Азербайджанской Рес-

Его разносторонняя деятельность в 70-е годы привлекла внимание писателя Александра Авдеенко, он в своей книге “Граница”, изданной в Москве в 1977 г., писал: “Истинно пограничная память у Насирова. Есть в нем одна особенность, которую так ценят на границе: творческая одержимость. Он был неутомимым искателем всевозможных новинок, облегчающих борьбу с нарушителями. Таким и остался. Он, как отличный шахматист, умеет думать за противника. Угадывает, упреждает хитроумные его ходы”.

Высокую гражданскую позицию проявил Насиров, когда его единственного сына в 1981 году направили служить в Афганистан. Разумеется, он мог бы попросить военный комиссариат оставить служить сына в Закавказье. Но решил, что его сын должен выполнить свой гражданский долг там, где это необходимо Родине. И сын - Эльшад, достойно отслужив установленный срок, вернулся с боевой наградой из Афганистана.

Активностью, настойчивостью, решительностью, любовью к народу отличалась его работа по руководству деятельностью пограничных войск в Азербайджане. Известно, что по Закону о прохождении военной службы того времени генерал-майоры, генерал-лейтенанты могли служить до 55-летнего возраста. Военный Совет пограничных войск СССР дважды по пять лет продлевал ему прохождение службы. Он был единственным генералом в пограничных войсках (кроме командующего пограничными войсками страны), прослужившим в войсках до 65-летнего возраста.

О высокой компетентности Насирова свидетельствует тот факт, что он трижды приказом Председателя КГБ СССР назначался председателем Государственной экзаменационной комиссии по выпуску Московского и Алмаатинского высших командных пограничных училищ, четырежды избирался депутатом Верховного Совета Азербайджанской Республики, членом Президиума Верховного Совета, был награжден различными орденами. Ему было присвоено звание “Почетный сотрудник госбезопасности СССР”, почетные звания “Заслуженный юрист” и “Заслуженный пропагандист Азербайджанской Республики”.

Говоря о генерале Насирове, как о видном азербайджанском военачальнике, нельзя не отметить его высокие человеческие качества. Генерал был цельной личностью. Во всем его облике, манере поведения проявлялась ответственность, достоинство, военная выправка. Отличительными чертами характера этого человека являлись эрудированность, принципиальность, аргументация принимаемых решений, стремление быть всегда в курсе событий, связанных с организацией и несением ответственной пограничной службы. Именно это позволяло ему своевременно реагировать на изменение оперативной обстановки на государственной границе. Сослуживцы генерала Насирова отзываются о нем с глубоким уважением не только как о талантливом командире, но и как о чутком, отзывчивом человеке. Они отмечают его удивительный такт в отношениях с подчиненными, уважение к личному составу, воинское достоинство.



Авторитет Насирова в те годы в Республике был очень высоким. Этим объясняется, в частности, то обстоятельство, что еще за 2 месяца до выхода в отставку в 1987 г., он был избран на общественную должность Председателя вновь созданного Азербайджанского Совета ветеранов войны, труда и Вооруженных сил. Возглавив Совет ветеранов, генерал Насиров сделал очень многое для того, чтобы эта общественная организация заняла достойное место в Республике. Своей творческой одаренностью, высокой работоспособностью, генерал задавал тон в ветеранской работе.

От вновь избранного председателя Совета ждали немедленных действий. А он присматривался, изучал положение дел, знакомился с документами, беседовал с руководителями Советов. Из их докладов внешне складывалась вроде бы благополучная картина. Однако у него сформировалось свое видение организации работы. Так, стали систематическими проведение зональных семинаров руководителей ветеранских организаций, непосредственная встреча с ветеранами в районах Республики.

Сейчас можно считать, что славной страницей биографии генерала стало также руководство им в течение восьми лет Азербайджанским республиканским Советом ветеранов. На этом почетном и ответственном посту вновь в полную силу проявились его замечательные организаторские способности, еще полнее раскрылись такие достоинства, как внимание к людям, готовность отдать все свои силы и способности служению Родине. По разным вопросам обращались к нему бывшие фронтовики, труженики тыла военных лет. Непростые проблемы ветеранов требовали принятия однозначных, порой безотлагательных решений. Советы, рекомендации генерала всегда были исключительно конструктивными. При этом все, кто с ним общался, видели в нем человека корректного, скромного, обаятельного. Его встречи с ветеранами всякий раз превращались в задушевные беседы. Насиров обладал бесценным даром человека, умеющего выслушать собеседника, понять его, а потом сделать все, чтобы помочь боевому побратиму

Вот как вспоминает общение с генералом Насировым один из старейших ветеранов Республики капитан 1-го ранга Александр Гритченко: «Мне, прослужившему в Военно-Морском Флоте немало лет, были привычны уставные взаимоотношения между старшими и младшими, и я, естественно, обращался к Насирову по воинскому званию. В очередной раз после подобного "чинопочитания" генерал меня мягко остановил и сказал: "Александр Александрович, у меня есть имя и отчество..."

В последние годы жизни в центре его внимания были вопросы, связанные с Карабахской войной, усиление военно-патриотического воспитания молодежи, перспективы и пути усиления вновь создаваемой Национальной армии.

В период военного конфликта в Карабахе по инициативе генерала Насирова бывшие фронтовики, труженики тыла военных лет, ветераны Вооруженных Сил систематически выезжали на передовые позиции, поддерживали бойцов, обменивались боевым опытом. В эти годы многое было сделано ветеранами по выходу Азербайджана из информационной блокады, доведения по различным каналам до мировой общественности правды о подлых действиях армянских сепаратистов.

Благодаря инициативе генерала Насирова стала традицией участие ветеранов в торжественных проводах молодежи в вооруженные силы Азербайджанской Республики, уроки мужества и патриотизма, тематические вечера, проведение в школах военно-патриотических конкурсов на лучшее сочинение, рисунок, песню, создание книг Памяти, Досок Почета ветеранов, клубов фронтовиков. Особое внимание Насиров уделял своевременному открытию памятников, мемориалов, бюстов героям Карабахской войны, содержани содержанию воинских захоронений, материальному и моральному поддержанию родителей, близких родственников Шахидов, отдавших свою жизнь за Родину.

На встречах со школьниками и студентами, призывниками и воинами, в средствах массовой информации генерал Насиров неизменно говорил о стойкости и мужестве азербайджанского народа в различные периоды истории, о беззаветной преданности азербайджанцев идеалам свободы и независимости, о неизбежности очищения священной карабахской земли от зарвавшихся армянских вояк и восстановления территориальной целостности страны. Он верил в блестящее, светлое будущее Азербайджана!

**Джалил Халилов**
**Заместитель председателя организации ветеранов войны, труда и вооруженных сил Азербайджанской Республики, доцент академии госслужбы при Президенте Азербайджанской Республики, доктор философии, полковник**

AZƏRBAYCAN VETERANI

# Göyərtilərin faydası

*Göyərtiləri bazardan alıb evə gətirən zaman evin havasını tamamilə dəyişər və hər yeri gözəl ətir bürüyər. Onların ətirləri gözəl olduğu kimi dadları da ləzzətlidir. Bu ləzzətli göyərtilərin sağlamlığımıza çox faydası vardır.*





### Şüyüd

Şüyüd də bu cür ətirli göyərtilərdən biridir. Misir həkimləri qədim zamanlarda ondan dərman kimi istifadə edirdilər. Bunu bilmək lazımdır ki, şüyüd mədə xəstəlikləri və yuxusuzluq üçün çox faydalıdır. Ona görə də yeməklərinizdə şüyüddən çox istifadə edin. İstər xam halında və istərsə də bişmiş halda. Şüyüdün toxumu iştahasızlıqla mübarizədə yaxşı dərman hesab edilir. Salatlarınıza və ya bişirdiyiniz şorbaların üzərinə şüyüdü doğrayıb tökə bilərsiniz. Yayda doğramac yemək çox ləzzətlidir və ona da şüyüd vurmağı unutmayın.

### Keşniş

Keşinişin iyi hər bir kəsin xoşuna gəlir. Bu göyərti insanın iştahasını açar. Həzm sistemini gücləndirmək üçün keşniş çox gözəl vasitədir. Balıq və ət yeməklərinin üzərinə keşniş doğrayıb, süfrəyə yeni rəng qata bilərsiniz. Keşniş toxumundan şirniyyatları ətirləndirmək üçün istifadə etmək olar.

### Cəfəri

Cəfəri ən çox istifadə edilən göyərtidir. Bu göyərtinin tərkibində C vitamini, kalsium, B9 vitamini, dəmir və anti-oksidantlar vardır. Yeməklərin bəzədilməsində ondan istifadə edə bilərsiniz. Həmişə təzə cəfəridən etməyə çalışın. Bu göyərtini qurutmaq heç də faydalı olmaz. Çünki tərkibindəki vitaminləri ölər. Onu həm xam və həm də bişmiş halda istifadə edin.

### Kəklikotu

Bu bitkinin tərkibində antibiotiklər, antiviruslar vardır və yeməyi gözəl həzm edər. Əgər iştahanız yoxdursa, bu bitkiyə inana bilərsiniz. Bu bitki həm də yorğunluğu aradan aparar. Bu bitkidən ətləri ətirləndirən zaman da istifadə etmək olar.

### Sarımsaq

Sarımsaq qanın cərəyanını yaxşılaşdırar və qan təzyiqini aşağı salar. Tədqiqatlar göstərir ki, sarımsaq qanda xolesterolun səviyyəsini aşağı salır. Əgər yeməklərinizin dadlı olmasını istəyirsinizsə, sarımsaqdan istifadə edə bilərsiniz. Kabablarda və balıqda sarımsaqdan istifadə etsəniz daha ləzzətli olar. Əgər sarımsaq iyi sizə əziyyət verirsə bir qədər cəfəri və ya hil çeynəyin.

# *İdeal səhər yeməyi*



Bir çox diyetoloqlar səhər yeməyi nahar və şam yeməyindən daha vacib hesab edir. Yuxu zamanı qanda şəkərin səviyyəsi aşağı düşür və enerji azalır. Bu səbəbdən səhər orqanizmin enerji balansını normaya salmaq lazımdır. Məhz buna görə səhər yeməyi yeyən insanlar daha fəal olur. Səhər yeməyi bədən çəkisini normada saxlamağa kömək edir. Sübut olunub ki, səhər yeməyi yeyən insanlar səhər yeməyindən imtina edənlərlə müqayisədə gün ərzində daha az yeyir. Həkimlərin fikirinə görə səhər yeməyi piyləmə, şəkərli diabet, ürək-damar sistemi xəstəlikləri, o cümlədən infarkt və insultun qarşısını alır, beyinin fəaliyyətini stimullaşdırır, əlavə enerji verir.

Diyetoloqların fikirinə görə, ideal səhər yeməyi bu kimi məhsullardan ibarət olmalıdır:

— taxıllar (sıyıqlar, çörək)
— meyvə və tərəvəzlər
— süd məhsulları
— yumurta.

İdeal səhər yeməyin menyusunun variantları:

— sıyıq təzə meyvələrlə və ya meyvə quruları ilə (məsələn, herkules sıyığı giləmeyvələrlə və ya kişmişlər, ərik qurusu ilə və s. )

— tərəvəz salatı + 1 tikə çörək

— süd məhsulları + meyvələr

İçkilərə gəldikdə isə diyetoloqlar səhəri çay və ya qəhvə ilə başlamağı tövsiyə etmirlər. Oyandıqdan dərhal sonra kiçik qurtumlarla 1-2 stəkan təmiz su için, 30 dəqiqədən sonra səhər yeməyi yeyin. Daha 1 saatdan sonra çay və ya qəhvə içəbilərsiniz.

# Əl titrəməsinin səbəbləri

Tibb dilində "tremor" olaraq adlandırılan titrəmə, əzələlərin istək xarici olaraq gördüyü hərəkətlərdir və bəzilərimizin sosial həyatına təsir edəcək qədər narahatlıq verir.

İnsanlar çox həyəcanlananda, qorxanda və hirslənəndə də bu halla rastlaşırıq. Bu vəziyyətdə olan əsnada, damarlar genişlənir, əzələlər gərginləşir, ürək daha sürətli atmağa və mədə turşu ifraz etməyə başlayır. Bütün bu hərəkətə gəlmə adamın özünü ən yaxşı şəkildə qoruması üçündür. Məhz bütün bu müdafiə mexanizmi zamanı bədəndə titrəmə də olur.

Əl titrəmələrinin ən əsas səbəblərindən biri də parkinson xəstəliyidir. Bu xəstəlik əsasən, 65 yaş üstü insanlarda görülür və xəstəliyi daşıyan şəxs əlini sabit saxlayanda belə, titrəyir.

Əl titrəməsinin digər önəmli bir səbəbi çoxlu kofein qəbuludur. Kofein beyni oyadar və hərəkətə keçməsinə yol açar. Bu səbəblə də, insanda titrəmə görülə bilər.



**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazılışı başlamışdır!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7 AZN**
**1 illik abunə haqqı - 14 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**

**Əlaqə telefonları:**
**(012) 440- 21-08**
**(012) 497- 63-58 (111)**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*
***Məsul katib***
*Səidə ABDULLAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaverọçkin küçəsi, 34*
***Əlaqə telefonu:** 012 440-21-08*
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi** - 3486*
***Dövlət qeydiyyat tarixi** - 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 50 qəpik*
*Tiraj: 1250*